Neftçi Peşəkar Futbol Klubu

# Brendin və korporativ üslubun istifadə qaydaları



Versiya 1.0

# Loqotip

Neftçi PFK-unun loqotipi brendin korporativ üslubunun əsasını təşkil edir. Loqotip tipoqrafika və rənglə birgə çap və rəqəmsal daşıyıcalarda müəyyən olunmuş qaydalar əsasında istifadə edilməli, klubun vizual kimliyini vahid üsluba görə təmsil etməlidir.

# Loqotipin detalları

Yeni loqotip klubun əvvəlki loqotiplərinin məna, konstruksiya və detallarını özündə əks etdirməklə yanaşı modern korporativ üslub dizaynı trendlərinə uyğun tərtib edilmişdir.

Hər beş ölkə çempionluğuna görə verilən ulduz simvolu

Neftçi klubunun əvvəlki loqotiplərində təsvir olunan neft qülləsinin minimalist üslubda, stilizasiya olunmuş versiyası

Klub adının baş hərfi

Klubun ilk loqotipinin əsasını təşkil edən gerb-qalxan simvolu

1937

Klubun yaranma tarixi

# Konstruksiya və təhlükəsiz məsafə

Loqotip dizayn olunarkən bütün detallar müəyyən ciddi konstruksiya əsasında tərtib edilmişdir. Qrafik formaların və neqativ boşluğun təsadüf əsasında hazırlanmaması dizayna ciddi harmoniya qatmışdır.







Loqotip səhifə üzərində mətn, şəkil və qrafik obyektlərlə yanaşı yerləşdirilərkən arada ən azı X məsafəsi qədər boşluq buraxılmalıdır. Əks halda vizual kimliyin əsasını təşkil edən loqotip ümumi tərtibatda diqqətdən kənarda qala bilər.

## Loqotipin alternativ versiyaları

Emblem formalı əsas loqotip əlavə mətnin iştirakı olmadan istifadə edilir. Müəyyən hallarda simvolla birgə klub adının yazılması zərurəti yaranarsa, alternativ kompleks versiyaya da müraciət oluna bilər.

1937

Neftçi PFK

Klub adının PFK əlavəsi ilə birgə işlənmiş versiyası

# Loqotipin alternativ versiyaları

Stikerlərdə, döş nişanlarında, sosial media profil şəkillərində (avatar), veb sayt fav-ikonlarında loqotipin tam, kompleks versiyasının yerinə minimal versiya istifadə edilə bilər.

Sadə, minimal loqotipin ulduzsuz versiyası

Minimal loqotipin ulduzla işlənən versiyası

# Loqotipin istifadə qaydaları

Əsas loqotip çap və rəqəmsal daşıyıcılarda qara konturlu ağ gerb, qara simvol və yaranma tarixi mətni və açıq narıncı ulduz formasında istifadə olunmalıdır. Tünd və rəngli fonlararda vizual çirkliliyin qarşısını almaq üçün gerbin qara kontur olmayan versiyasına müraciət edilməlidir.

Birrəngli çap materiallarında və ya rəngli fonlarda monoxrom loqotip istifadə edilməlidir.

Rəngin iştirak etmədiyi fərqli çap texnologiyalarında loqotipin detallarının fonda itməməsinə, lazımi kontrastın alınmasına diqqət yetirilməlidir.

Pozitiv

Neqativ

Tam rəngli tərtibat zamanı loqotipin istifadə formaları

Birrəngli tərtibatda və ya rəngli fonda istifadə olunacaq monoxrom loqotiplər

Metallik çap (üstdə), parça üzərində tikiş (altda) kimi fərqli istehsal prosesində loqotipin istifadə nümunələri

# Loqotipin yanlış istifadə nümunələri

Neftçi loqotipi ciddi konstruksiyaya malikdir. Bu tərtibat prinsipini heç bir halda pozulmamalıdır. Nümunələrdə göstərilmiş “dizayn eksperimentləri” brendin vizual kimliyinə həvəskar görüntü qatmaqla onun vahid üslubuna xələl gətirmiş olacaq.

Loqotip deformasiya edilə bilməz

Ulduzun yeri dəyişdirilə bilməz

Emblemsiz konstruksiyada ulduz aralı qala bilməz

Loqotip ulduz olmadan istifadə edilə bilməz

Əlavə qrafik formalara müraciət oluna bilməz

Ulduzdan başqa heç bir detal rəngli ola bilməz

Gerbin daxili hissəsi rənglənə bilməz

Nazik xəttlər istifadə oluna bilməz

Xəttlər qalınlaşdırıla bilməz

Hər hansı hissənin ölçüləri dəyişdirilə bilməz

# Loqotipin fonda yanlış istifadə nümunələri

Loqotip fərqli fonrlarda istifadə olunarkən onun bütün detalları aydın oxunmalı, kontrastlı görüntü almalıdır. Lazımi nəticə almaq üçün loqotipə toxunmayıb fona müdaxilə edilməlidir.

× Neytral boz rəng üzərində ulduz fonla kontrast təşkil etməlidir




× Fon tünd olarsa gerb hissənin kontursuz versiyasına müraciət edilməlidir




× Rəngli fondan istifadə edilərkən rəng gerb konturu ilə kontrastlı olmalıdır




× Rəngli fonda gerbin daxili hissəsi ağ olmalıdır. Əks halda detalların oxunması çətinləşir




× Foto detalları loqotipin aşkar seçilməsinə mane olmamalıdır




× Pattern (naxış) üzərində loqotipin oxuna bilməmək təhlükəsi var



## Birləşmiş loqotiplər

Neftçi loqotipinin partnyor loqotipləri ilə birgə istifadəsi zamanı kompozisiyanın balanslı görünməsinə diqqət yetirilməlidir. Partnyor loqotipinin vizual çəkisi ağır gəlməməli, heç bir halda sağ tərəf Neftçi loqotipindən önə çıxmamalıdır.




Ümumi loqotipdə olduğu kimi burada da müəyyən konstruktiv yanaşma qorunmalı, təsadüfi yerləşimdən istifadə edilməməlidir.

# Loqotipin foto üzərində istifadə qaydaları

Çap və rəqəmsal reklam materiallarında, təqdimatlarda və digər daşıyıcılarda loqotip foto üzərində yerləşdirilərkən müəyyən prinsiplərə əməl edilməlidir:

- Loqotip fotonun vizual boşluq olan künclərində yerləşdirilməlidir
- Kənar təhlükəsiz məsafələrə diqqət yetirilməlidir
- Fonda olan foto detalları loqotipə mane olmamalıdır
- Loqotipin fotonun vacib və maraqlı hissələrinin üzərini bağlamadığına əmin olunmalıdır

✗ Loqotip fotonun sol küncündə sıxılıb. Oyunçu sağa çəkilməlidir



✓ Loqotipin ətrafında daha çox “hava” olduğu üçün kompozisiya daha uğurludur



✓ Fonu tündləşdirməklə loqotipin oxunaqlılığını gücləndirmək mümkündür



✗ Loqotip foto detallarının üzərində rahat oxunmur



✓ Loqotip sağ küncə keçirilib, fon tündləşdirməklə kontrast artırılıb



✗ Loqotip həm fotonun maraqlı hissəsinin qarşısını kəsir, həm də fonda itir



✓ Loqotip uyğun qrafik forma üzərində daha rahat oxunur



# Rənglər

Brendin vizual üslubunun əsasını ağ-qara tərtibat təşkil edir. Əlavə aksent rənglərə ehtiyac duyularsa, açıq narıncı, qızılı və qırmızı rənglərdən istifadə edilə bilər. Bu zaman ağ və qaranın dominantlığı əsla pozulmamalıdır.

Əsas rəng

Pantone Black
C0 M0 Y0 K100
R30 G30 B30

Əlavə rənglər

Pantone 123C
C0 M35 Y100 K0
R250 G175 B20

Pantone 7407C
C20 M30 Y70 K0
R210 G175 B105

Pantone Red
C0 M100 Y100 K0
R235 G30 B35

## Tipoqrafika

Loqotipdən sonra vizual kimliyin əsas hissəsi tipoqrafikadır. Bu baxımdan şrift seçimi, mətn tərtibatı təyin olunmuş qaydalar əsasında edilməlidir.

Korporativ tipoqrafikanın əsasını modern qrotesk şrift olan İnter təşkil edir. Şrift Azərnaycan və kiril əlifbasının bütün simvollarını dəstəkləməklə fərqli dillərdə olan kontentin tərtibatında asanlıqla istifadə oluna bilər.

Şriftin fərqli qalınlıqları olsa da, daha çox Light, Regular, Bold və Black versiyalarından istifadə etmək tövsiyə olunur.

Inter
Light
Regular
**Bold**
**Black**

ABCDEFGHIJKLMNOPQRSTUVWXYZ
abcdefghijklmnopqrstuvwxyz
0123456789!@#$%^&*()-=+?

AaBbCcDd
**01234**




AZ1025, Nobel prospekti 64, Bakı, Azərbaycan
(+994 12) 424 46 40, 496 57 82 (faks)
info@neftchipfk.com | neftchipfk.com